

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ *qapısı*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 41 (23.928)

*1 mart 2022-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti fevral ayı ərzində müəyyən qərarlar qəbul edib. Belə ki, Nazirlər Kabinetinin 2022-ci il 1 fevral tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında pedaqoji fəaliyyətlə məşğul olmağa yol verilməyən xəstəliklərin Siyahısı"nda dəyişiklik edilmişdir. Dəyişikliyə əsasən xüsusi təhsil müəssisələri ilə yanaşı, uşaq musiqi və incəsənət məktəblərində də binokulyar korluq və binokulyar ağır görmə pozuntusu olanlar pedaqoji fəaliyyətlə məşğul ola bilərlər.

Nazirlər Kabinetinin eyni tarixli digər bir Qərarı ilə "Naxçıvan Muxtar Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə edilmiş dəyişikliyə uyğun olaraq 1 fevral 2022-ci il tarixindən etibarən xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə idxal olunan 92 və ya daha çox, həmçinin 95-dən az oktan ədədi olan avtomobil benzininə tətbiq olunan gömrük rüsumunun tarif dərəcəsi 15 faizdən sıfra endirilmişdir.

Həmçinin Nazirlər Kabinetinin 2022-ci il 9 fevral tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasının ərazisinə gətirilən aksizli malların aksiz dərəcələri"ndə dəyişiklik edilmişdir. Dəyişikliyə uyğun olaraq oktan ədədi 95-dən az olan mühərrik benzinləri üçün (aviasiya benzinləri istisna olmaqla) aksiz vergisi 1 tona görə 200 manatdan 1 manata endirilmişdir.

Nazirlər Kabinetinin 2022-ci il 17 fevral tarixli Qərarı ilə Naxçıvan Muxtar Respublikasında 2022-ci il 1 yanvar vəziyyətinə torpaqların növləri, mülkiyyətçiləri və istifadəçiləri üzrə torpaq balansı təsdiq olunmuşdur.

Bundan başqa, Nazirlər Kabinetinin 2022-ci il 24 fevral tarixli Qərarı ilə "Koronavirus infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi haqqında" Qərarında dəyişiklik edilmişdir. Müvafiq dəyişikliyə görə Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzi publik hüquqi şəxsin tibbi profilaktik tədbirləri həyata keçirən işçilərinə, pasiyentlərə stasionar tibbi xidmət göstərən və bioloji materialın müayinəsi ilə məşğul olan laboratoriya işçilərinə, həmçinin Səhiyyə Nazirliyinin təcili tibbi yardım xidməti göstərən tibb işçilərinə, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin tibb işçilərinə və koronavirus infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən digər səhiyyə müəssisələrinin tibb işçilərinin əməkhaqlarına ödənilən əlavənin müddəti mart ayının 1-dək uzadılmışdır.

Nazirlər Kabinetinin 2022-ci il 25 fevral tarixli Qərarı ilə "Dövlət Taxıl Fondunun saxlanması və istifadəsi Qaydaları"nda dəyişiklik edilərək fonda taxılın tədarük edilməsi, saxlanması və yeniləşdirilməsi səlahiyyətləri dövlət sifarişçisi kimi Naxçıvan Muxtar Respublikasının Dövlət Ehtiyatları Agentliyinə həvalə edilmiş və fonddan taxılın istifadəsi üçün qərar qəbul edilməsi məqsədilə təklif verən qurumların sırasına Dövlət Ehtiyatları Agentliyi də daxil edilmişdir.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

*Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Gənclər Birliyinin Tədbirlər Planına uyğun olaraq Babək rayonunda Yeni Azərbaycan Partiyasının fəal gəncləri ilə görüş keçirilib.*

## Yeni Azərbaycan Partiyasının fəal gəncləri ilə görüş keçirilib



Görüşdə Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı İsa Məmmədov Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının 6-cı konfransında Təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun proqram xarakterli məruzəsində partiya üzvləri qarşısında müəyyənləşdirdiyi yeni vəzifələrdən danışıb. Qeyd olunub ki, bu vəzifələrin yerinə yetirilməsi Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının gələcək fəaliyyətində xüsusi əhəmiyyətə malikdir.

İsa Məmmədov gənclərin iştirakı ilə keçirilən belə görüşlərin əhəmiyyətindən də danışıb. Vurğulanıb ki, Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatı da hər zaman fəaliyyətində gənclərin inkişafına geniş imkanların yaradılmasına, onlarda milli şüurun, vətənpərvərlik ruhunun formalaşdırılmasına xüsusi diqqət yetirib. Məlumat verilib ki, Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatı 57 ilk partiya təşkilatını özündə birləşdirir. Təşkilatın 7146 partiya üzvü vardır ki, onlardan 2380 nəfərini məhz gənclər təşkil edir.

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Gənclər Birliyinin sədri Arzu Qasımov qeyd edib ki, təşkilatın üzvlərinin 23 min 594 nəfərini gənclər təşkil edir. Görüşdə birliyin yeni formalaşmış heyəti, fəaliyyət istiqamətləri, o cümlədən həyata keçirəcəyi tədbir və layihələr, gənclərin könüllü fəaliyyəti üçün yaradılan şəraitdən söz açılıb və qeyd olunub ki, naxçıvanlı gənclərin bilikli, dünyagörüşlü, müasir yeniliklərə bələd, o cümlədən milli-mənəvi dəyərlərimizə bağlı, vətənpərvər ruhda yetişməsi Gənclər Birliyinin əsas fəaliyyət istiqamətlərindən biridir.

Arzu Qasımov göstərilən yüksək etimada, gəncliyin inkişafı sahəsində həyata keçirilən tədbirlərə görə gənclər adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq edib.

Görüşdə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Gənclər Birliyinin sədr müavini Elvin Əliyevin, birliyin üzvləri Gülxanım Orucovanın və Hüseyn Rəsulzadənin mövzu ətrafında fikirləri dinlənilib. Çıxışlar zamanı qarşıda duran vəzifələrin yerinə yetirilməsi üçün gənclərin üzərinə düşən vəzifələrdən söhbət açılıb. Vurğulanıb ki, gənclərimiz onlar üçün yaradılan şəraitdən səmərəli istifadə etməli, muxtar respublikamızın inkişafına töhfə verməlidirlər. Bunun üçün gənclər elmin sirlərinə dərindən yiyələnməli, muxtar respublikanın ictimai-siyasi həyatında fəal iştirak etməli, ən əsası, Naxçıvan reallıqlarının təbliğində fəal olmalıdırlar.

Diskussiya şəklində davam edən görüşdə gəncləri maraqlandıran suallar cavablandırılıb, onların təklif və ideyaları ətrafında fikir mübadiləsi aparılıb.

**Muxtar RZAZADƏ**

*Muxtar respublikada əhalinin səmərəli məşğulluğunun təmin edilməsi üzrə həyata keçirilən ardıcıl tədbirlər, səhiyyənin davamlı inkişafı və sağlam ekoloji mühitin formalaşdırılması əhali artımına müsbət təsir göstərir.*

## Həyata keçirilən məqsədyönlü tədbirlər əhalinin dinamik artımına müsbət təsir göstərir



İnsan amilinə verilən dəyərin nəticəsidir ki, muxtar respublikada 1 yanvar 2022-ci il tarixə əhalinin sayı 2011-ci ilin sonu ilə müqayisədə 44,5 min nəfər artaraq 463 min nəfər olub. Ümumi əhalinin 95,6 min nəfəri Naxçıvan şəhərində, 111,7 min nəfəri Şərur, 76,8 min nəfəri Babək, 50,4 min nəfəri Ordubad, 47,4 min nəfəri Culfa, 33,1 min nəfəri Kəngərli, 25,3 min nəfəri Şahbuz, 22,7 min nəfəri Sədərək rayonlarında qeydə alınıb.

Ümumi əhalinin 231,3 min nəfərini kişilər, 231,7 min nəfərini isə qadınlar təşkil edib. Əhalinin 35,4 faizi şəhər, 64,6 faizi isə kənd yerlərində yaşayır.

Muxtar respublikada bir kvadratkilometrə düşən əhalinin sayı 84 nəfər olub ki, bu da 2011-ci ilin sonu ilə müqayisədə 8 nəfər çoxdur. Əhalinin ən sıx məskunlaşdığı yer Naxçıvan şəhəridir. Burada bir kvadratkilometrə 499 nəfər düşür.

2021-ci ildə muxtar respublikada 4068 körpə doğumu qeydə alınıb. Doğulanların 2136-nı və ya 52,5 faizini oğlanlar, 1932-ni və ya 47,5 faizini isə qızlar təşkil edib. Doğulan uşaqlardan 47-si əkiz olub. 2021-ci ildə muxtar respublikada doğulan oğlan uşaqlarına Yusif, Əli, Hüseyn, Uğur və Məhəmməd, qız uşaqlarına isə Zəhra, Aylin, Məryəm, Fatimə və Zeynəb adları daha çox verilib. Ümumilikdə, son 10 ildə muxtar respublikada 65,1 min uşaq doğulub.

2021-ci ildə ölüm göstəricisi muxtar respublikada əhalinin hər 1000 nəfərinə hesabı ilə 6,3 nəfər olmuşdur. 1 yaşa qədər uşaq ölümü göstəricisi isə hər 1000 doğulana hesabı ilə 4,9 nəfər təşkil edib.

2021-ci ildə muxtar respublikada 2675 nikah bağlanmış, nikaha girənlərdə orta yaş həddi kişilərdə 28,4, qadınlarda isə 24,1 yaş təşkil edib. 2012-ci ildən 1 yanvar 2022-ci il tarixədək muxtar respublikada 27 min nikah qeydə alınıb.

Muxtar respublika iqtisadiyyatının davamlı inkişafı, keyfiyyətli ərzaqla təminat və digər mühüm tədbirlər bundan sonra da yeni doğulanların sağlam böyüməsinə və daha uzunömürlü yaşamalarına şərait yaradacaqdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## *"Culfa"* yarımstansiyasında yenidənqurma işləri aparılır





Muxtar respublikada enerji təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl tədbirlər görülür. Alternativ və bərpa olunan enerji mənbələrindən düzgün istifadə olunur, yeni elektrik stansiyaları tikilərək istifadəyə verilir, istehsalın həcmi artırılır.Bu tədbirlərin davamı olaraq "Culfa" yarımstansiyası yenidən qurulur.

Culfa rayonu ərazisində bununla əlaqədar ayrılan əkinəyararsız torpaq sahəsində yeni texnoloji qurğu və avadanlıqlar quraşdırılır. Dövlət Energetika Xidmətinin mühəndis-texniki işçi heyəti tərəfindən həyata keçirilən tikinti-quraşdırma işlərinin bir qismi artıq başa çatıb.

Layihələndirilən yeni 132/110/35/10 kilovoltluq "Culfa" yarımstansiyasının yenidən qurulması istehlakçıların dayanıqlı elektrik enerjisi ilə təminatına imkan verəcək. Eyni zamanda idarəetmə təkmilləşəcək, işçilərin təhlükəsizliyi təmin olunacaq.

Qeyd edək ki, "Culfa" yarımstansiyası sistem əhəmiyyətli yarımstansiya olub, İran İslam Respublikası və Naxçıvan Muxtar Respublikasının enerji sistemini əlaqələndirir. Ordubad və Culfa rayonunun enerji təminatı məhz bu ötürücü və paylayıcı yarımstansiya vasitəsilə həyata keçirilir.

**Xəbərlər şöbəsi**

## Aqrar sahədə işlər davam etdirilib

Muxtar respublikada aqrar sahənin inkişafı üzrə işlər cari ildə də davam etdirilir. "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılmasına dair Tədbirlər Planı"nın və "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası istiqamətində nazirliyin əməkdaşları Naxçıvan şəhəri, Babək, Şərur və Kəngərli rayonlarında torpaq mülkiyyətçiləri və sahibkarların iştirakı ilə seminar-müşavirələr keçirib, onlara məsləhətlər verilib. Cari ildə yaz əkinlərinin daha optimal müddətdə başa çatdırılması, əsasən, günəbaxan və yağ üçün qarğıdalı bitkilərinin əkilib-becərilməsi, eyni zamanda əkin zamanı baş verə biləcək nasazlıqların aradan qaldırılması üçün rayonlarda yaz əkinlərində iştirak edəcək texnikaların sahibləri və ailə təsərrüfatçıları ilə fərdi söhbətlər aparılıb. Babək rayon Cəhri qəsəbəsinin sakini Fikrət Kərimovun müraciətinə əsasən ona məxsus səbzə-tərəvəz istixanalarına baxış keçirilib və lazım olan kompleks tədbirlərə dair məlumatlar verilib. Səbzə-tərəvəz, o cümlədən tərxun yetişdirilməsi üçün parnik təsərrüfatlarının yaradılması üçün nazirliyə müraciət edən 6 sahibkar və ailə təsərrüfatı başçısına nazirlik əməkdaşları tərəfindən tövsiyələr verilib.

Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsinin mütəxəssisləri tərəfindən gəmiricilərin aşkarlanması üçün Naxçıvan şəhərinin ətraf ərazilərində müşahidələr aparılır. Gəmiricilər aşkarlanan sahələrdə sink fosfid kimyəvi preparatından istifadə etməklə aldadıcı yem hazırlayaraq mübarizə tədbirlərinin aparılması üçün ailə təsərrüfatı sahibləri və fermerlərin iştirakı ilə maarifləndirmə tədbirləri keçirilir.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

*İnkişaf edən bölgələrimiz*

# Yeni tarixini yazan yurd yeri: ORDUBAD

*Tarixə qısa ekskurs*

Boya-başa çatdığım Ordubada hər yolum düşəndə bu qədim yurd yerinin əsrarəngiz gözəllikləri, qonaqpərvər insanları, tarixi-memarlıq abidələri, özünəməxsus mətbəxi, dünyanın müxtəlif ölkələrinə gedib çıxan dadlı-tamlı meyvələri, ətirli limonu... barədə səyyahların, tarixçilərin, buraya gələn qonaqların söylədiklərini xatırlayır, qürur hissi keçirirəm. Ordubada ən böyük və ən gözəl qiyməti isə ulu öndər Heydər Əliyev verib: ***“Ordubad Azərbaycanın incisidir”***. Bu inci haqqında XVII əsr tarixçisi İsgəndər Münşinin sözləri yadıma düşür: “Günəş Ordubadın ulduzudur. O, behiştə verilən tərifə layiqdir. Huri-mələklərin gözünü onun Nəzərə dağı işıqlandırır”. Ordubad həm də tarixiliklə müasirliyin harmoniyasını yaşadaraq gələcək nəsillərə ərmağan etməyə hazır bir bölgədir. Nuhun ayağı dəydiyi Gəmiqaya bu yurdun ilkin yaşayış məskəni olduğunu ortaya qoyur. Mənbələrdə Ordubadın şəhər kimi formalaşması V-VI əsrlərə aid edilir; adı isə ilk dəfə VII əsrdə çəkilib. Deyilənləri bir daha sübut edən mənbələr sırasında Ordubadda izləri yaşayan Gilan və Azad şəhərləri, buraya ayaq basanlara İçərişəhəri xatırladan qədim məhəllələri yada salmaq olar.







Burada isə Ordubada səfər etmiş amerikalı jurnalist və tədqiqatçı Peter Tasenin dediklərini xatırlamaq yerinə düşür: “Ordubadın gözəl mənzərəsi var. İnsanları çox qonaqpərvər və istiqanlıdır. Gözəl mənzərələr və müasir infrastruktur turistlərin diqqətini cəlb edir. Ordubad şəhərində yaradılmış infrastruktur, həqiqətən də, Qərbi Avropanın şəhərlərindəki kimidir. Tarixən strateji yer hesab olunan Ordubada səfər edən turist və tədqiqatçılar buranın qədim mədəniyyətini tanımaq imkanı əldə edir. Ordubad şəhərində XVI əsrə aid olan, hazırda muzey kimi fəaliyyət göstərən tarixi Qeysəriyyə binası var. Tarixən bu regionda 3 belə Qeysəriyyə binası olub. Digər iki Qeysəriyyə binası Səmərqənd və Təbrizdədir. Bu gün valehedici Ordubad şəhəri Şərq aləminin canlı muzeyi hesab olunur. Avropa və Asiya arasında coğrafi və etnoqrafik əlaqəni təmin edən şəhər öz tarixini və ənənələrini qoruyaraq nəsildən-nəslə ötürür”.

Hər dəfə Ordubada gedərkən rayon ağsaqqalı və ziyalısı Qüdrət Mehdiyevlə maraqlı müsahib, doğma yurd yerinin tarixini dərindən bilən bir insan kimi görüşməyə, onunla söhbətləşməyə daxili bir ehtiyac duyuram. Elə bu dəfə də belə oldu. Qüdrət müəllim deyir ki, Ordubadın bu gününün təməli ötən əsrin yetmişinci illərindən başlayıb. O illərdə tikinti-quruculuq işləri genişləndirilib, rayon mərkəzində və böyük kənd yaşayış məntəqələrində müxtəlif təyinatlı obyektlər həyata vəsiqə alıb. Bu gün Ordubad şəhərindəki bütün ictimai yaşayış binaları, bir neçə inzibati obyekt o illərin yadigarlarıdır. Bu illərdə sənayenin, kənd təsərrüfatının inkişafı istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilib. 1926-cı ildə Ordubadda barama toxumu istehsal edən zavod və corab-kələğayı fabriki fəaliyyətə başlayıb. Rayonda ipəkçiliyin inkişafı XIX əsrin sonlarına gedib çıxır. XX əsrin əvvəllərində artıq Ordubadda güclü ipəkçilər yetişmişdi. Onların istifadə etdikləri texnoloji avadanlıqlar burada yüksəkkeyfiyyətli ipək istehsalına imkan vermişdi. 1924-1940-cı illərdə bölgədə xam ipək istehsalı 2 min tondan 17 min tona çatdırılmışdı. Bu qiymətli məhsullar 13 dəfə qızıl medala layiq görülmüşdü. Rayon mərkəzindəki baramaaçan fabriki iki növbədə işləməklə burada yüzlərlə ordubadlı özünə iş yeri tapmışdı.

Qüdrət Mehdiyevin sözlərinə görə, Naxçıvanda yeyinti sənayesinin bünövrəsi də Ordubadda qoyulub. Belə ki, 1928-ci ildə Ordubadda meyvə-konserv zavodunun fəaliyyətə başlaması burada yeni iş yerlərinin yaradılmasına və bölgədə yetişdirilən dadlı-tamlı meyvələrdən istifadə edərək müxtəlif konservlər hazırlanmasına imkan vermişdi. Zavodda cəviz, tut, alma, heyva, armud, şaftalı, gilənar, gilas, qızılgül mürəbbələri, kompotlar hazırlanaraq SSRİ-nin müxtəlif respublikaları ilə yanaşı, xarici ölkələrə də göndərilirdi. Burada yetişdirilən meyvələr dəfələrlə beynəlxalq sərgilərə çıxarılmış, 9 qızıl medal almışdı.

400-dən artıq alim yetişdirən Ordubadda həmin dövrlər təhsilin, səhiyyənin, mədəniyyətin inkişafı istiqamətində də gözəçarpan nailiyyətlər əldə edilib. Bir neçə muzey yaradılıb. Azərbaycan Elmlər Akademiyasının Ordubad şəhərində 2 xüsusi elmi-texniki konstruktor bürosu fəaliyyət göstərib.





Ordubad şəhərinin qoruq şəhəri statusu alması da ulu öndərin bu bölgəyə verdiyi töhfədir.

Sovet dönəminin son illərində bütün bölgələrimiz kimi, Ordubad rayonu da baş verən hadisələrdən sığortalana bilmədi. Ölkədə tüğyan edən anarxiya, xaos, özbaşınalıq bu bölgənin də qaynar həyatını pozdu. Bəzi idarə və müəssisələr fəaliyyətini müvəqqəti olaraq dayandırdı. XX əsrin 70-80-ci illərində yaradılmış emal və istehsal müəssisələri iflic vəziyyətə düşdü. Bərəkətli torpaq sahələri əkilməmiş qaldı. Çətinliklər ordubadlıları sıxsa da, onlar doğma yurd yerindən üz döndərmədilər. Vətən, torpaq təəssübü hər şeyə üstün gəldi. Çünki onlar hər qaranlıq gecənin bir işıqlı gündüzü olacağına inanırdılar. Və bu inamlarında yanılmırdılar. Bu ziya xalqımızın ümummilli lideri Heydər Əliyev idi. Ulu öndər Moskvadan Naxçıvana qayıdandan sonra Ordubad rayonuna gəldi. Rayon mərkəzindəki böyük meydanda ordubadlıların ulu öndərimizi necə qarşılaması bu sətirlərin müəllifinin gözləri önündədir.

*Bu günün qısa statistikası*

2021-ci ildə əvvəlki illə müqayisədə sənaye məhsulu 1,6, əsas kapitala yönəldilən vəsaitlər 2,6, kənd təsərrüfatının məhsulu 3,5, nəqliyyat sektorunda yük daşınması 1,6, informasiya və rabitə xidmətləri 0,5, pərakəndə əmtəə dövriyyəsi 2,3 faiz, əhaliyə göstərilən ödənişli xidmətlər isə 1,8 faiz artıb. Bu dövrdə iqtisadi fəaliyyətin müxtəlif sahələrində 14 istehsal və xidmət sahəsi yaradılıb.

İllərdir ki, rayonda müxtəlif istiqamətli quruculuq tədbirlərinin həyata keçirilməsi bölgənin həyat ritminə çevrilib. Onu da qeyd edək ki, belə tədbirlərdə rayonun tarixi-memarlıq simasının qorunması diqqətdə saxlanılır, bununla belə, tarixiliklə müasirliyin vəhdətinin yaradılmasına ciddi önəm verilir. 2021-ci il də bu baxımdan əlamətdar olub. Belə ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ötən il may ayının 10-da muxtar respublikaya səfəri zamanı Ordubad rayonunda da bir sıra obyektlərin açılışında iştirak edib. Bu səfər bölgənin tarixinə ilin ən yaddaqalan hadisəsi və yeni inkişaf mərhələsinin başlanğıcı kimi yazılıb.

Yeri gəlmişkən onu da qeyd edək ki, ötən il iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 61878,6 min manat vəsait yönəldilib. Tikinti-quraşdırma işlərinə qoyulan vəsaitin dəyəri 59 milyon 137 min 200 manat təşkil edib.

2021-ci ildə rayonda 63 müxtəlif təyinatlı obyekt tikilib, yenidən qurulub və ya əsaslı təmir olunub, 23 müxtəlif təyinatlı obyektin tikintisi, yenidən qurulması və ya əsaslı təmiri davam etdirilib. Belə ki, bəhs olunan dövrdə Kapital Bankın Ordubad filialının inzibati binasının tikintisi başa çatdırılıb, inşa olunan 5 kənd mərkəzində çalışan əməkdaşlara normal iş şəraiti yaradılıb.

Əhalinin həyat səviyyəsinin yaxşılaşması fərdi yaşayış evlərinin tikintisinə də müsbət təsir göstərib; rayonda əhalinin şəxsi vəsaiti hesabına, ümumilikdə, 15 min 405 kvadratmetr yaşayış sahəsi istifadəyə verilib.

Ordubad rayon mərkəzi və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin tikintisi, Nüsnüs və Yuxarı Əndəmic kəndlərində içməli su xətlərinin çəkilişi, Behrud, Dəstə və Kələki kəndlərində yeni kapitajların tikintisi yekunlaşdırılıb. Bu dövrdə Culfa-Ordubad magistral və Yuxarı Əndəmic-Nüsnüs, Ordubad şəhər-Aşağı Əndəmic kənd avtomobil yolları yenidən qurulub.

Nüsnüs kəndində bir körpü tikilib, Nüsnüs, Vələver, Aza və Qoşadizə kəndlərində bir körpünün təmiri, Nüsnüs, Yuxarı Əndəmic, Aşağı Əndəmic, Dırnıs və Vələver kəndlərində xidmət mərkəzlərinin tikintisi başa çatdırılıb, Kələki, Unus və Pəzməri kəndlərində xidmət mərkəzlərinin, Anaqut kəndində istirahət mərkəzinin tikintisi davam etdirilib.

Təhsil quruculuğu istiqamətində Ordubad şəhərində 1 nömrəli, Nüsnüs, Aşağı Əndəmic, Dırnıs kəndlərində tam orta məktəb binalarının yenidən qurulması, Vələver kəndində tam orta məktəb binasının tikintisinin başa çatdırılması bu sahədə yeni uğurlar qazanılmasına şərait yaradıb.

Ordubad Rayon Uşaq Xəstəxanası binasının yenidən qurulması, Nüsnüs, Yuxarı Əndəmic və Dırnıs kəndlərində həkim ambulatoriyası binalarının, Vələver kəndində feldşer-mama məntəqəsinin tikintisinin başa çatdırılması bölgədə səhiyyə xidmətinin yüksəldilməsinə öz təsirini göstərib.

Rayonda idmanın inkişafı da diqqətdə saxlanılıb, Ordubad Şəhər Stadionunun yenidən qurulması rayon idmançılarına böyük hədiyyə olub.

*Ən vacib sahələrdən biri: iqtisadiyyat*

Ordubad Rayon İcra Hakimiyyətinin Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi müdirinin müavini Zamiq Babayev deyir ki, iqtisadiyyatın inkişafına nail olmaq hər bir inkişaf etmiş ölkənin qarşısında duran ən prioritet vəzifədir. Çünki ancaq bununla ərzaq təhlükəsizliyini və digər sahələrin inkişafını təmin etmək olar. Ona görə muxtar respublikamızda bu istiqamətdə həyata keçirilən tədbirlərdən bu bölgəyə də xeyli pay düşüb. Bunu sənaye sahələrində də görmək olar.

2021-ci ildə sənaye məhsulunun dəyəri 2020-ci illə müqayisədə 1,6 faiz artaraq 4 milyon 688 min manat olub.

Qeyd edək ki, Ordubad rayonu daha çox aqrar bölgədir. Burada kənd təsərrüfatının, demək olar ki, bütün sahələrinin inkişafı üçün təbii imkanlar mövcuddur. Son illər rayonda aqrar sahəyə göstərilən hərtərəfli dövlət qayğısı daha böyük nailiyyətlər əldə edilməsinə imkan verib. Ötən il də əhalinin ərzaq məhsullarına olan tələbatının keyfiyyətli yerli məhsullar hesabına ödənilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilib, daxili bazarda məhsul bolluğu yaradılıb.

2021-ci ilin məhsulu üçün rayonda 3937 hektar sahədə əkin aparılıb. Taxılçılıq üstün istiqamət kimi saxlanılıb və 2021-ci ildə 524 hektarını buğda, 1073 hektarını isə arpa təşkil etməklə, 1597 hektar taxıl zəmilərindən 4556 ton, 586 hektar kartof əkini sahəsindən 8705 ton kartof tədarük edilib. 487 ton dənli-paxlalılar (qarğıdalısız), 6 ton dən üçün qarğıdalı, 5789 ton tərəvəz, 120 ton ərzaq üçün bostan məhsulları istehsal olunub.

Kənd təsərrüfatının əsas sahələrindən biri kimi heyvandarlığın inkişafı istiqamətində keçirilən tədbirlər davam etdirilib, diri çəkidə 3258,2 ton ət, 6322,7 ton süd, 13 milyon 382 min 400 ədəd yumurta istehsal olunub. 2020-ci illə müqayisədə ət istehsalı 1,5 faiz, süd istehsalı 2,3 faiz, yumurta istehsalı 1,2 faiz artıb. Bütün təsərrüfat sahələrində qazanılan uğurlar ordubadlı torpaq mülkiyyətçilərinin muxtar respublikada ərzaq təhlükəsizliyinə, yerli məhsul bolluğuna töhfəsi kimi dəyərləndirilməlidir. Həyata keçirilmiş tədbirlərin nəticəsi olaraq 2021-ci ildə bir il öncəyə nisbətən 3,5 faiz çox, yəni 48 milyon 692 min 700 manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilib.

Ailə təsərrüfatçısı Yaqut Babayeva deyir ki, istehsal etdiyimiz məhsulların qablaşdırılmasında, satışa çıxarılmasında və digər sahələrdə rastlaşdığımız ən kiçik çətinlik yerindəcə aradan qaldırılır, əhalinin məşğulluğu təmin olunur.

Tarixən meyvəçilik diyarı kimi tanınan Ordubadda son illər yaşıllaşdırma tədbirləri daha geniş vüsət alıb. İl ərzində belə tədbirlər davam etdirilib. İməciliklər yolu ilə 8,7 hektar yeni bağ salınıb, 10 hektar sahədə bərpa işləri həyata keçirilib.

Sadalanan bu rəqəmlər qazanılan müvəffəqiyyətlərin bir qismini əks etdirir. Çünki digər sahələrdə də yüksək uğurlara nail olunub. Hər bir uğurun arxasında isə insan amilinə, onun layiq olduğu səviyyədə yaşayışına, fəaliyyət göstərməsinə hərtərəfli dövlət qayğısı dayanır, belə qayğının davamlı xarakter alması isə rayon sakinlərini doğma torpağa daha sıx tellərlə bağlayır. Onların qurub-yaratmasına, Ordubadın gözəlliklərini qoruyub-saxlamalarına, daha da zənginləşdirmələrinə sövq edir.

*“Azərbaycanın incisi” haqqında bu kiçik qeydləri qələmə alıb başa çatdıranda tarix elmləri doktoru, professor Teymur Bünyadovun sözlərini xatırladım: “Ordubadda gözəlliklərdən doymursan, öz-özünə deyirsən: Ordubadı görməyən nə Vətən görüb, nə vətənpərvərlik görüb, nə də gözəllik duyub”. Ordubadı olduğu kimi görmək üçün Ordubada gedin! Gördükləriniz isə ümummilli liderimiz Heydər Əliyevin uzaqgörən siyasəti, misilsiz dühası ilə təməli qoyulan inkişaf mərhələsinin Ordubadda uğurla və sədaqətlə davam etdirilməsi və bölgənin yazılan yeni tarixidir.*

**Muxtar MƏMMƏDOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***



*Hər il mart ayının 1-i Ümumdünya Mülki Müdafiə Günü kimi qeyd edilir.*

*1 mart Ümumdünya Mülki Müdafiə Günüdür*

# Muxtar respublikada mülki müdafiə tədbirləri uğurla reallaşdırılır

***“Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır”***, – deyən ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyinin hər iki dövründə əhalinin təbii və texnogen fəlakətlərdən etibarlı mühafizəsi istiqamətində mühüm tədbirlər görülmüşdür. Bu sahədə zəruri qanunvericilik bazası yaradılmış, 1997-ci il iyunun 10-da “Yanğın təhlükəsizliyi haqqında”, həmin il dekabrın 30-da isə “Mülki müdafiə haqqında” Azərbaycan Respublikasının qanunları qəbul olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə ölkəmizdə mülki müdafiə xidmətinin maddi-texniki bazası xeyli gücləndirilmiş, mütəxəssis hazırlığı günün tələbinə uyğun qurulmuşdur. 2005-ci il dekabrın 16-da ölkəmizdə Fövqəladə Hallar Nazirliyinin yaradılması ilə bu sahədə vahid dövlət siyasətinin həyata keçirilməsinə başlanılmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“Bütövlükdə, bu gün texniki təminat yüksək səviyyədədir. Son illərdə lazım olan bütün texniki avadanlıq alınmışdır... Yəni bu gün texniki təchizatla bağlı heç bir problem yoxdur... Bir sözlə, Fövqəladə Hallar Nazirliyinin maddi-texniki bazası möhkəmdir, işçilərin peşəkarlığı artır, tədris prosesi düzgün təşkil edilibdir”.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 30 dekabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin yaradılması muxtar respublikada insanların həyatının, əmlakının baş verə biləcək təbii və texnogen fəlakətlərdən qorunması baxımından atılan mühüm addımlardan biridir. Ötən illər ərzində böyük inkişaf yolu keçən Fövqəladə Hallar Nazirliyi və onun struktur qurumları üçün müasir inzibati binalar tikilib istifadəyə verilmiş, şəxsi heyətin sosial təminatının, o cümlədən mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl işlər görülmüşdür. Belə ki, 2012-ci ildə nazirliyin yeni inzibati binası istifadəyə verilmiş, binada müasir xidmət şəraiti, elektron nəzarət və idarəetmə sistemləri yaradılmışdır. Həmçinin 2008-ci ildə Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və Naxçıvan Şəhər Şöbəsinin inzibati binası, 2009-cu ildə Kəngərli, Şahbuz, Ordubad Rayon şöbələri, 2013-cü ildə Şərur və Babək Rayon şöbələri, 2014-cü ildə Sədərək Rayon Şöbəsi, 2020-ci ildə isə Culfa Rayon Şöbəsi üçün yeni inzibati binalar və texniki qarajlar istifadəyə verilmiş, müasir iş şəraiti yaradılmışdır. Mülki Müdafiə Alayının təlim mərkəzində döyüş hazırlığı məşğələlərinin, təlim və məşqlərin keçirilməsi üçün hərtərəfli şərait yaradılmış, avtomobil və xüsusi təyinatlı nəqliyyat vasitələrinin saxlanması, istismarı və texniki xidmət göstərilməsi üçün müasir avtomobil parkı istifadəyə verilmiş, peşəkar xilasedicilərin hazırlanması məqsədilə təlim mərkəzi yaradılmış və onun ərazisində helikopter meydançası tikilmişdir.

Muxtar respublika ərazisində ehtimal olunan fövqəladə hallara çevik reaksiyanın verilməsi və nəticələrinin aradan qaldırılması zamanı xüsusi riskli axtarış və qəza-xilasetmə əməliyyatlarının aparılması, zərərçəkmişlərə ilk yardım və təxirəsalınmaz tibbi yardım göstərilməsi məqsədilə 2009-cu ildə Xüsusi Riskli Xilasetmə Xidməti yaradılmış və bu sahədə fəaliyyətin nümunəvi təşkili üçün zəruri addımlar atılmışdır. Muxtar respublika ərazisində baş verən təbii, texnogen hadisələrin statistikasının aparılması, belə hadisələrə çevik reaksiyanın verilməsi məqsədilə Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzi və ***“112”*** qaynar telefon xətti yaradılmışdır.

Tikinti sahəsində təhlükəsizliyin təmin edilməsi məqsədilə muxtar respublikada 2010-cu ildən etibarən Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi fəaliyyətə başlamış, onun nəzdində Mühəndis-geoloji, sement və beton laboratoriyası yaradılaraq ən müasir sınaq avadanlıqları və cihazları ilə təchiz edilmişdir. Həyata keçirilən quruculuq tədbirləri çərçivəsində şəxsi heyətin yaşayış və mənzil-məişət şəraitinin yaxşılaşdırılması da daim diqqətdə saxlanılır. Belə ki, nazirliyin zabit-gizir ailələri üçün Naxçıvan şəhərində 48 mənzilli yaşayış binası tikilmiş və 2017-ci il yanvarın 11-də Azərbaycan Respublikası Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin iştirakı ilə şəxsi heyətin istifadəsinə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 17 mart tarixli Sərəncamına əsasən “Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası” nəşr olunmuşdur. 6 bölmədən ibarət olan atlasda fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üzrə tədbirlərin praktik olaraq planlaşdırılması və həyata keçirilməsi müəyyən edilmiş, eyni zamanda muxtar respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı göstəricilər, infrastruktur obyektləri barədə məlumatlar, müxtəlif miqyaslı inzibati və coğrafi xəritələr verilmişdir. Atlasda muxtar respublika ərazisində ehtimal olunan daşqın-subasma hadisələri, çöl yanğınları, təhlükəli hidrometereoloji hadisələrdən olan doluvurma, anomal aşağı temperaturlar, eroziya və səhralaşma prosesləri, torpaqların şoranlaşması, güclü küləklər, su qıtlığı təhlükəsi və atmosfer quraqlığı da öz əksini tapmışdır. Bundan başqa, atlasda təbii fövqəladə hal mənbələrinin mövcudluğu, yayılma arealı və təhlükəsi, əvvəlki illərdə muxtar respublikada baş vermiş bu tip təbii fəlakətlər, onların vurduğu ziyan haqqında statistik məlumatlar yer alır. Fövqəladə hallar atlası fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, bu zaman fəaliyyət üzrə idarəetmə orqanlarının və qüvvələrinin fəaliyyətinin planlaşdırılması, təşkili baxımından müstəsna əhəmiyyət kəsb edir.





Nazirliyin maddi-texniki bazasının möhkəmləndirilməsi daim diqqət mərkəzində saxlanılmışdır. Ötən il Mülki Müdafiə Alayında əsaslı təmir və yenidənqurma işləri aparılmış, şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə əsgər yataqxanası və yeməkxanasında, qərargah binasında təmir və yenidənqurma işləri həyata keçirilmişdir. Belə ki, istilik, su, kanalizasiya və elektrik sistemləri quraşdırılmış, yaşayış və qeyri-yaşayış binalarının dam örtükləri yenidən boyanmış, sıra meydanlarına asfalt örtüyü salınmış, ərazidə abadlıq işləri aparılmışdır.

Nazirlik tərəfindən mütəxəssis hazırlığına xüsusi diqqət verilərək “Naxçıvan Qarnizonu Qoşunlarının 2022-ci tədris ilinə uzlaşma planı”na əsasən Mülki Müdafiə Alayının və Xüsusi Riskli Xilasetmə Xidmətinin xilasedicilərı “Qar uçqunlarında zərərçəkənlərin axtarışı və xilasedilməsi, onlara ilkin tibbi yardımın göstərilməsi idarəetmənin təşkili” mövzusunda təlimin keçirilməsinə cəlb olunmuşdur. Nazirliyin müvafiq qurumlarının heyətlərinin təcrübə qazanması məqsədilə Naxçıvanda keçirilən “Sarsılmaz qardaşlıq – 2021” Azərbaycan-Türkiyə birgə əməliyyat-taktiki təlimində iştirakı təmin edilmişdir. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi və Avstriya Respublikası Federal Daxili İşlər Nazirliyinin qarşılıqlı əməkdaşlığı çərçivəsində ötən ilin 11-19 dekabr tarixlərdə Qusar rayonunda dağ alpinizmi və qar uçqunlarında axtarış-xilasetmə üzrə təliminə Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyinin müvafiq şəxsi heyəti də cəlb edilmişdir. Təlim nəzəri və praktik hissədən ibarət olmaqla keçirilmiş, sonda xilasedicilərə Avstriya Daxili İşlər Nazirliyinin müvafiq sertifikatları təqdim olunmuşdur. Həmçinin Mülki Müdafiə Alayı və Xüsusi Riskli Xilasetmə Xidmətinin xilasedici dalğıclarının peşə hazırlığı keçirilən taktiki-xüsusi təlimdə təkmilləşdirilmişdir.

Muxtar respublikada fövqəladə hallar zamanı təxliyə (evakuasiya) olunan əhalinin və zərərçəkənlərin tələbatının ödənilməsi, yaşayışın və qidalanmanın normal təşkili, habelə ehtimal olunan radioaktiv, kimyəvi və bioloji zəhərlənmələr zamanı əhaliyə vaxtında fərdi mühafizə vasitələrinin paylanması istiqamətində də məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Bu istiqamətdə nazirliyin mülki müdafiə qüvvələrinin fəaliyyət göstərməsi üçün müasirtipli radiasiya axtarış və ölçü cihazları alınıb gətirilmiş, bu cihazlarla işləyən mütəxəssislərin hazırlığı ixtisasartırma kurslarında təkmilləşdirilmişdir.

Fövqəladə hallar zamanı əhalinin xəbərdar edilməsi diqqətdə saxlanılaraq şəhər və rayonlarda quraşdırılan elektrik sirenlərinin sazlığı mütəmadi yoxlanılmışdır. İçməli su mənbələrində monitorinqlər keçirilərək sanitar-gigiyena norma və qaydalarına əməl edilməsinə, çay hövzələrində sel axınlarına qarşı tikilən bəndlərin, suburaxıcı və selötürücü qurğuların vəziyyətinə, eləcə də irihəcmli su anbarları bəndlərinin təhlükəsizliyinə və hidrotexniki qurğuların fəaliyyət rejiminə nəzarət edilmişdir. Muxtar respublikada mülki müdafiə işinin təşkili ilə bağlı obyektlərdə taktiki-xüsusi təlim, əməli məşğələ, konfranslar, maarifləndirici tədbirlər keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Fövqəladə Hallar Nazirliyi öz fəaliyyətini fövqəladə hadisələrin qarşısının alınması, bu sahədə dövlət siyasətinin həyata keçirilməsi istiqamətində qurur. Ölkəmizdə, eləcə də muxtar respublikamızda nazirliyin fəaliyyəti tam təmin olunmuş, struktur qurumları üçün müasir iş və xidmət şəraiti yaradılmışdır. İnsanların həyatının, dövlət əmlakının, fərdi təsərrüfatların və sahibkarlıq subyektlərinin baş verə biləcək hadisələrdən qorunması nazirliyin və onun müvafiq qurumlarının qarşısında duran başlıca vəzifələrdir”.***

Fövqəladə Hallar Nazirliyi bundan sonra da mülki müdafiə işinin müasir tələblər səviyyəsində qurulması, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması istiqamətində zəruri tədbirləri həyata keçirəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Dövlət Universiteti Clarivate Analytics şirkəti ilə əməkdaşlığı genişləndirir

Naxçıvan Dövlət Universitetində keçirilən onlayn tədbirdə Clarivate Analytics Şirkətinin Rusiya və MDB üzrə rəhbəri Oleq Utkin şirkətin fəaliyyəti haqqında məlumat verərək şirkətin əməkdaşlıq imkanları, Azərbaycanda fəaliyyəti, elmi jurnalların indekslənməsi, impakt faktorlar barədə danışıb.



Clarivate Analytics şirkətinin regional təhsil şöbəsinin müdiri Valentin Boqorov qeyd edib ki, Web of Science (WoS) və Scopus hazırda dünyada ən nüfuzlu baza olaraq qəbul olunur. Qeyd edilib ki, nəşr standartlarının digər əlamətlərindən biri də məqalələrin resenziyadan keçməsidir, bu da təqdim olunan elmi materialların keyfiyyətinin, həmçinin orada istinad edilən ədəbiyyat siyahısının dolğun şəkildə verildiyinin göstəricisidir. Şirkətə məxsus olan publons, elmi media platforması, core collection, metrik baza haqqında məlumat verən Valentin Boqorov Naxçıvan Dövlət Universiteti professor-müəllim heyətinin son iki ildə web of sciences indeks bazalarında elmi məqalə nəşrlərinin qənaətbəxş olduğunu bildirib.

Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev ali təhsilin davamlı inkişafına nail olunması, alimlərin elmi məqalələrinin nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmasına dəstək göstərilməsi istiqamətində görülən işləri diqqətə çatdırıb.

Görüşün sonunda tədbir iştirakçılarının sualları cavablandırılıb.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Naxçıvanlı həkimlərin beynəlxalq konfransda iştirakı təmin olunub

*Rusiya Terapevtlərinin Elmi Tibb Cəmiyyəti ilə Azərbaycan Tibb Universitetinin birgə təşkilatçılığı ilə daxili xəstəliklər və onların müalicəsinə həsr olunmuş elmi-praktik konfrans keçirilib. Konfransa Naxçıvan Muxtar Respublika Xəstəxanasının heyəti də qoşulub.*

Konfransda Azərbaycanın və Rusiyanın müxtəlif tibbi-elmi müəssisələrinin mütəxəssislərinin çıxışları dinlənilib. Çıxışlarda elmi-praktik konfransın qarşılıqlı əlaqələrin genişləndirilməsi, təcrübə mübadiləsi baxımından böyük önəmi vurğulanıb. Bildirilib ki, Rusiya Terapevtlərinin Elmi Tibb Cəmiyyəti daxili xəstəliklər sahəsində aparıcı rus mütəxəssislərinin səylərini birləşdirmək məqsədilə 100 ildən artıq müddətdir ki, fəaliyyət göstərir. Cəmiyyət yarandığı gündən ümumi praktikantların peşəkarlıq səviyyəsinin daim yüksəldilməsini özünün əsas vəzifəsi hesab edir.

Konfransda “COVID-19 dünən, bu gün və sabah”, “Daxili xəstəliklər” və digər mövzularda məruzələr dinlənilib.



Konfransda Naxçıvanda yerləşən Duzdağ Fizioterapiya Mərkəzi və buradakı təbii müalicənin effektiv nəticələri barədə iştirakçılara geniş məlumatlar verilib.

Konfrans müxtəlif mövzularda məruzə və müzakirələrlə öz işini davam etdirib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Müxtəlif fəaliyyət sahələrinə uyğun aktivlərin verilməsi davam edir

Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Banklar Assosiasiyası arasında həssas əhali qruplarının özünüməşğulluğunun təşkilinə köməklik göstərilməsi sahəsində əməkdaşlığa dair memorandum imzalanmışdır.

Memoranduma əsasən sosial qayğıya ehtiyacı olan ailələr, o cümlədən sağlamlıq imkanları məhdud şəxslər, xüsusi qayğıya ehtiyacı olan şəhid və qazi ailələri barədə məlumatlar əsasında muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən müxtəlif fəaliyyət sahələrinə uyğun aktivlərin verilməsi nəzərdə tutulmuşdur.

Görülən işlər çərçivəsində artıq “Kapital Bank” Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan filialının xətti ilə Şərur rayonunun Mahmudkənd sakini Namiq Novruzova avtomobil şinlərinin təmiri, Naxçıvan şəhər sakini Rəfael Nəbiyevə isə avtoçilingər fəaliyyəti göstərməsi məqsədilə alınmış müxtəlif növ avadanlıqların verilməsi təmin edilmişdir.

Qeyd edək ki, proqram muxtar respublika üzrə, ümumilikdə, 50 sosial qayğıya ehtiyacı olan ailəni əhatə edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

*Kiçik çillə bitir, öz ömrünü xalq təsəvvüründə yazın müjdəçisi kimi yaşayan Boz aya verir. Boz ay xalq təfəkküründə "ağlar-gülər ay" kimi xarakterizə olunur. Bu zaman kəsiminə verilən adlar, eləcə də "boz ay" həmin zamanda havanın tez-tez dəyişməsi ilə əlaqələndirilir. Adətən, tutqun, dumanlı, küləkli keçən hava qəfildən istiləşir. Və ya əksinə, isti hava tez-tez öz yerini soyuq hava kütlələrinə, yağışlı, bəzi vaxtlarda da artıq təbiətə, təsərrüfata ziyan verə biləcək qarlı hava kütlələrinə verə bilir. Verilən adların bəzilərində yüngül əzizləmə məqamlarını da müşahidə etmək mümkündür. Bu da etnosun təbiət və onun fəlakətlərinə etiqad və inamla yanaşmasını ifadə edir.*

*Xalq təqvimi*

# İkinci ilaxır çərşənbə – *Torpaq çərşənbəsi*

## *Torpaq milli ruhla, halal zəhmətlə, yurd sevgisi ilə qorunduqda Vətən olur*



Xalq hörmətlə yanaşdığı təbiət qüvvələrindən imdad gözləmək məqsədilə onu "əzizləməyi" məqsədəuyğun bilmişdir. Ona görə də "ağlar-gülər ay" və sair kimi adlar bu məqsədi ifadə edə bilər. Əksinə olaraq edilən mücadilələrə – keçirilən ayin və rituallara, qurbanlara "baxmayan" təbiət bəzi vaxtlarda insanlarla qəddar "rəftar edir". Onun maddi həyatını təmin edən təsərrüfatına böyük ziyan vurur. Və bu ziyanı qəbul etməyən insan təbiəti adlandırmaq məqamına hiddətlə yanaşır. Elə xalq arasında da insandakı kəskin xarakteri, baş vermiş hadisəyə insanın reaksiyasını "boz" sözü ilə ifadəsinə təsadüf edilir. İnsanın hirsli, acıqlı məqamındakı reaksiyasını "bozarmaq" ifadəsi ilə müqayisə edən xalq isti, mülayim havanın anidən dəyişərək kəskin soyuqla əvəzlənməsini də "boz" sözünün müdaxiləsi ilə ifadə edir. Yəni fevralın 20-dən Novruzadək olan dəyişkən hava ilə izlənilən zaman kəsimi "Boz ay" adlanır.

Boz ay bizi Novruza aparan ay olaraq dünyanın yaranmasında iştirak edən dörd ünsürün simvollaşdığı dörd çərşənbəni əhatələyir: Su, Torpaq, Yel, Od.

Dünyanın yaranmasında əsas ünsür kimi ilk çərşənbə – Su çərşənbəsi öz ardınca Torpaq çərşənbəsini "səsləyir". İkinci ilaxır çərşənbə torpağın oyanması, torpaqla bağlı təsərrüfat işlərinin başlanması ilə bağlı olaraq xalq təfəkküründə Torpaq çərşənbəsi adlanmaqdadır.

Torpaq çərşənbəsində Azərbaycanın müxtəlif regionlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasının şəhər və kəndlərində müxtəlif ayin və mərasimlərin icrası torpaq kultuna inamı əks etdirən mərasimlər kimi diqqət çəkir. Bu çərşənbəni el arasında "çillə-beçə çərşənbəsi" də adlandırırlar. Torpağı əkib-becərmək, ona qulluq etmək üçün bu çərşənbədə fəallıq daha da artır. Hamı öz həyət-bacasına, torpağına olan hörmətini artırmaq məqsədilə əkin işlərini sürətləndirir. Naxçıvanda bu münasibətlə xalq arasında belə bir deyim formalaşmışdır ki, torpaq, ona olan qulluğun, hörmətin qarşılığını insana mütləq verəcəkdir. Bu deyim elə qədim türk mifizminin daşıyıcısı olan Naxçıvan mühitinin mifoloji dünyasında Torpaq əyəsinin varlığını, onun bir zamanlar kult səviyyəsində olmasını təsdiqləyir. İnsanlar torpağa qulluq etməklə özlərinin maddi təminatını da müəyyən qədər ödəmiş olduqlarını düşünürlər. Həm də torpaqla bağlılıqlarını, əməyə, zəhmətə olan sevgilərini folklor nümunələri şəklində yaradıb gələcək nəsillərə ötürürlər:

*Qarışqadan ibrət al,*<br>
*Yaz ikən qışı düşün.*

Torpaq çərşənbəsinin xarakterik ayinlərindən biri Naxçıvanda evlərin həyətlərində tonqal qalanmasıdır. İnsanlar od üstündən tullanaraq ağrılığın, dərd-sərin köhnə ildə qalmağını arzulayırlar.

Naxçıvanda Torpaq çərşənbəsində icra olunan ayinlərdən biri ağacqorxutma adətidir. Ev əhlinin ən yaşlı nümayəndəsi əlində balta bağa gəlir, hər ağacın dibinə üç dəfə balta ilə vurur. Bu ayin vasitəsilə inanılır ki, ağaclar "qorxaraq" növbəti ilə yaxşı bar verəcəklər. Naxçıvan Muxtar Respublikasının bəzi bölgələrində bu ayini, əsasən, bar verməyən ağac üçün tətbiq edirlər. Əlində balta barsız ağaca yaxınlaşan insan baltanı ağacın dibinə yaxınlaşdıraraq deyir ki, əgər gələn il bar verməsən, səni kəsəcəyəm. Başqa biri isə baltanı onun əlindən alaraq onu dayandırmağa çalışır və deyir ki, dəymə, kəsmə, mən zamin, gələn il bar verəcək. Bu ayinin kökündə yenilənmə dayanır. Bar verməyən, lakin sağlam olan ağaclar da qorxudulur. Qorxutmaqda məqsəd təkcə ağacdan bar almaq deyil. Bir ağacın barsız olması, onun mal-heyvan kimi qısırlığını ifadə edir. Qədim türklərdə də qısırlığın, sonsuzluğun uğursuzluq gətirəcəyinə inanılırdı. Bu çatışmazlıqdan qurtarmaq üçün insanlar ağacları qorxutmaqla onların qüsurunu aradan qaldırmaq istəyirdilər. Haqqında söhbət açdığımız ayin qədim türkün əski adət-ənənələri ilə bağlı olub, kökündə etnosun təbiəti yeni ruhda qarşılamaq düşüncəsi dayanır.

Naxçıvanda xalq yaddaşında belə bir inam dolaşmaqdadır ki, bir qarış yer var, onun da əyəsi var. Hər nəsnənin əyəsi olduğu kimi, torpağın da əyəsi var. Torpağa qulluqdan öncə gərək onun əyəsinə salam verəsən. Əgər salam verməsən, torpaq əyəsi səni cavabsız qoyar, yaxşı məhsul verməz. Bu inanclar torpağa tapınmanın izlərini özündə qoruyub saxlamaqla kosmoqonik görüşləri ifadə edir. Bu baxımdan xalq arasında torpaqla, yerlə bağlı olan "Yerin yeddi qatından keçmək" ifadəsi də dolaşmaqdadır.

İnanclar sırasında diqqət cəlb edən nümunələrdən biri də budur ki, elə ilk çərşənbədən başlayaraq bütün ilaxır çərşənbələrdə evə diləyə gələn qonşuya evdən ələk, maya, şam, kibrit verilməz. Bunları verməmək zərurəti yaranarsa, diləyə gələn qadının başından örpəyi götürülür, əvəzinə istədiyi verilir. Bu ayin Torpaq çərşənbəsində də icra olunur.

Torpaqla bağlı Naxçıvanda müxtəlif xalq yaradıcılığı nümunələri yaddaşlarda yaşamaqdadır ki, bunlardan sözün magik qüvvəsinə inamı xarakterizə edən alqışlar olduqca fəaldır:

*Torpağın bərəkətli olsun!*<br>
*Torpağın sanı yaşayasan!*<br>
*Torpaq kimi bar-bəhrəli olasan!*<br>
*Torpağından təzə-təzə nübarlar dadasan!*<br>
*Torpağın rahat olsun!*

Bu nümunələrdən göründüyü kimi, torpaq qədim türklərdə insanı haqq dünyasına qovuşduran varlıq olmaqdan əlavə, insanın xilasına xidmət edən kult kimi də düşünülmüşdür. Torpaq müqəddəsliyi ilə həm insana həyat verir, həm də onu haqq dünyasında ağuşuna alır. Hər mənada torpaq insana hamidir.

Muxtar respublikamızın bəzi bölgələrində xalq arasında torpağın müqəddəsliyini ifadə edən atalar sözü və məsəllər də yetərincədir:

*Torpaqda itki olmaz, kötüksüz bitki olmaz.*<br>
*Torpaq əkinçinin zəhməti ilə zinətlənər.*<br>
*Torpağa var versən, o da sənə bar verər.*<br>
*Sular hərəkətlidir, torpaq bərəkətli.*<br>
*Torpağı ovuclayan – qızıl ovuclar.*<br>
*Torpağın üzü soyuq olar.*<br>
*Torpağa vaxtlı-vaxtında su ver, bəhrəsini gör.*<br>
*Torpaqla oynayan ac qalmaz.*<br>
*Torpaqdan pay olmaz.*<br>
*Torpaq milli ruhla, halal zəhmətlə, yurd sevgisi ilə qorunduqda Vətən olur.*

İcra olunan ayin və mərasimlər, eləcə də Torpaq çərşənbəsi ilə əlaqəli yaddaşlarda qorunan inanc-sınama örnəkləri ulu əcdadın erkən təsəvvürlərinin məhsulu kimi dəyərlidir. Bu örnəklər torpağın xalqın həyatındakı vacibliyini, əhəmiyyətini bədii və poetik şəkildə təsdiqləyir.

***Xalqın yaxşıya, xeyirə olan inamını daşıyan alqışına qoşularaq deyirik ki, torpağınızın barı-bəhrəsi sizi sevindirsin! Torpaq çərşənbəniz mübarək olsun!***

**Aytən CƏFƏROVA**<br>
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru***

# Haçadağa yürüş



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Hava və Ekstremal İdman Növləri Federasiyasının təşkilatçılığı ilə Türkiyənin Dağçılıq Federasiyasının 23, Naxçıvanda fəaliyyət göstərən federasiyaların 16, ümumilikdə, 37 nəfər dağçı idmançının iştirakı ilə Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar Haçadağa ekstremal idman yürüşü təşkil edilib. İştirakçılar tərəfindən Haçadağın zirvəsində Azərbaycan və Türkiyənin Dövlət bayraqları dalğalandırılıb, himnləri səsləndirilib.

Yürüşdən sonra Hava və Ekstremal İdman Növləri Federasiyası tərəfindən tədbir iştirakçılarına təşəkkürnamələr, Türkiyə Dağçılıq Federasiyasının rəhbəri Ersan Başara isə plaket və xüsusi hədiyyə təqdim edilib. Öz növbəsində, Türkiyə Dağçılıq Federasiyası tərəfindən Naxçıvan Muxtar Respublikası Hava və Ekstremal İdman Növləri Federasiyasının sədri Mayis Əliyevə plaket təqdim olunub.

Görüşlərdən sonra Türkiyə Dağçılıq Federasiyasının nümayəndələrinin "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksinə və "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinə ekskursiyaları təşkil edilib.

Tədbirdən sonra qonaqların fikirlərini öyrəndik:

***Ersan BAŞAR (Türkiyə Dağçılıq Federasiyasının prezidenti): –*** Naxçıvana gəliş səbəbimiz Xocalı faciəsinin 30-cu ildönümündə yerli dağçılarla Haçadağa yürüş etmək, bunu bütün dünyaya tanıtmaq və soyqırımında şəhid olan insanların xatirəsini yad etməkdən ibarətdir. Bundan öncə də muxtar respublikada hər il bu yürüş təşkil olunub, Türkiyənin müxtəlif dağçı klublarının üzvləri Naxçıvandakı bu tədbirdə iştirak edib. Mən ilk dəfədir, Naxçıvana gəlirəm və bundan sonra da hər zaman buraya gəlmək, Xocalı soyqırımını dünyaya tanıtmaq üçün əlimdən gələni edəcəyəm. Naxçıvan bizi çox gözəl və isti qarşıladı, hər birimizlə ayrılıqda maraqlandılar. Səfər çərçivəsində Hava və Ekstremal İdman Növləri Federasiyasının sədri Mayis Əliyevlə görüşdük, bu idman növünün inkişafı üçün fikir mübadiləsi apardıq. Sonda belə qərara gəldik ki, bundan sonra Türkiyə Dağçılıq Federasiyasının təcrübəli məşqçiləri Naxçıvana gələcək, burada idmançılar və məşqçilər üçün seminarlar təşkil olunacaq və dərslər keçiləcək. Dağçılıq təkcə yürüşlə kifayətlənmir və bunun müxtəlif qolları var ki, onların da Naxçıvanda inkişafı gənc, perspektivli idmançıların beynəlxalq turnirlərdə iştirakı üçün federasiyamızın məşqçiləri burada treninqlər keçiləcək, bu növün bütün sirləri öyrədiləcək. Yerli federasiya ilə razılığımıza əsasən yetişən gənc idmançılar tez-tez Türkiyə Dağçılıq Federasiyası tərəfindən Türkiyəyə dəvət olunacaq, oradakı yarışlarda, yürüşlərdə iştirak edəcəklər. Deyə bilərəm ki, bundan sonra əməkdaşlığımız çərçivəsində hər iki tərəfə gediş-gəliş sayı artacaq.



***Murad Kılıçlı (İqdır Dağçılıq Arama Kurtarma Spor Klubunun sədri): –*** Naxçıvana budəfəki səfərdə Türkiyə Dağçılıq Federasiyası sədrinin də iştirak etməsi bu yürüşün nə qədər önəm kəsb etdiyinin göstəricisidir. 23 nəfərlik heyətlə buraya gəldik və Haçadağa yürüşümüz təşkil olundu. Zirvədə bütün heyətlə bərabər, Azərbaycan və Türkiyənin Dövlət himnlərini oxuduq, şəhidlərimizi bir dəqiqəlik sükutla yad etdik. Xocalı soyqırımını şiddətlə və nifrətlə qınayırıq, unutmuruq, unutmayacağıq. Hər il buraya səfərlər təşkil olunur və bunu ənənə halına gətirib gələn il 100-dən çox dağçı ilə gəlmək fikrimiz var. Amma başqa bir fikrimi də çatdırmaq istəyirəm. Belə ki, qismət olarsa, bu soyqırımı bütün dünyaya nümayiş etdirmək üçün Hollandiyada bir aksiya keçirmək planımız var. Bundan başqa, Avropanın digər ölkələrində də belə yürüşlər, aksiyalar keçirmək, insanlara baş verən Xocalı soyqırımını, qətliamını tanıtmaq, aşılamaq istəyirik. Mən də Türkiyədə soyqırımına məruz qalmış bir ailənin övladıyam. Mənim də babalarım, qohumlarım, ümumilikdə, 72 nəfər ermənilər tərəfindən soyqırımda yandırılaraq öldürülüb. Ona görə bu soyqırımları dünyaya tanıtmaq üçün əlimizdən gələni edəcəyik. Naxçıvanda bizə çox mehriban münasibət göstərilir, burada özümüzü evimizdəki kimi hiss edirik. Bir daha təşkilatçılara təşəkkürümüzü bildiririk.



**✍ Ceyhun MƏMMƏDOV**

# Sabahın tədqiqatçıları iki beynəlxalq müsabiqədə I dərəcəli diploma layiq görülüb

2021-2022-ci tədris ilində də icrası həyata keçirilən "Sabahın tədqiqatçıları" layihəsi çərçivəsində İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Leyla Səfərovanın elmi rəhbərliyi ilə tədqiqat aparan Naxçıvan şəhər 9 nömrəli tam orta məktəbin XI sinif şagirdi Səmayə Rəsulova "Vremya Znaniy" Ümumrusiya məktəbli olimpiadasında "Literatura" (Dünya ədəbiyyatı – XI sinif) istiqaməti üzrə, "Erudit" onlayn beynəlxalq müsabiqəsinin "Literatura i teoriya" mövzusu üzrə onlayn müsabiqələrin I dərəcəli diplom və medallarına layiq görülüb.

Əməkdaşımızın elmi rəhbərliyi ilə tədqiqat aparan daha bir Naxçıvan məktəblisi – 12 nömrəli tam orta məktəbin X sinif şagirdi Sabirə Seyidova isə "Erudit" onlayn beynəlxalq müsabiqəsinin "Favourite English" ("Söz birləşmələri və idiomlar" istiqaməti üzrə) I dərəcəli diplom və medal ilə mükafatlandırılıb.



Məktəblilərdə düzgün tədqiqat aparmaq bacarıqları formalaşdırdığına, uğurlu elmi rəhbərliyinə görə Leyla Səfərova hər iki müsabiqənin münsiflər heyəti tərəfindən diplom və medalla təltif olunub.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## *İtmişdir*

Şərur rayonunun Dərəkənd sakini Əsədov Akif Hüseyn oğlunun adına olan JN-1A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Əliyev Vüsal Vaqif oğluna məxsus AD-№-0039686 seriya nömrəli hərbçinin şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Babayev Rəcəb İntizam oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Həşimov Zahid Akif oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*

*Telefonlar: Məsul katib: 545-62-47*<br>
*Şöbələr: 545-81-44, 545-51-18*<br>
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*<br>
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:*** **Ceyhun Məmmədov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 191**